# 950-ci dialoq



"Kredo" qəzetinin 950-ci sayı işıq üzü görür. Bu, o deməkdir ki, qəzet 950 dəfədir ki, təzə libasda, yeni görkəmdə, yeni məzmunda oxucuların görüşünə gəlir. Bu, o deməkdir ki, 950 dəfə 9-10 milyonluq əhalinin könül dünyası ilə müsahib olub, dilsiz-ağızsız, ancaq ürək dili ilə danışıb-dilləşib qəzetimiz. Və doğrudan da, danışıb-dilləşə bilib. Ona görə ki, sözün ucuzlaşdığı, urvatdan-kəsərdən düşdüyü qəzet bolluğu içərisində oxucu qəlbinə yol tapmaq üçün kəlmə tapıb, söz tapıb danışmaq asan başa gəlmir. Bunun üçün qəzetin naşirindən və yazar ordusundan da kəsərli söz tapıb işlətmək tələb olunur, eyni zamanda yazardan təmsilçisi olduğu mətbu orqanı da bu baxımdan urvatlı saxlamaq məsuliyyəti, həmçinin də ki, qarşına çıxacaq oxucunun da yazılanlardan özü üçün nə isə əxz edə bilməsinə çalışılması tələb olunur. Başqa sözlə, qəzetə jurnalistin canlı bir orqanizm kimi yanaşa bilməsi əsas şərtdir. O canlı orqanizm ki, jurnalistin əsəridir, yəni o mətbu orqana can verən yazar əhlidir. İkinci bir tərəfdən isə bu "canı" (qəzeti) yaşadan amil isə ona dəyər verən oxucularıdır. Deməli, qəzet deyildikdə, mətbu nəşr deyildikdə, sarsılmaz bir üçbucaq amili orada özünü göstərir. O üçbucağın bir başında qəzetçi, o biri başında oxucu dayanırsa, məxrəc nöqtəsində isə vasitəçi funksiyası daşıyan mətbu orqanın - qəzetin özü dayanır. Bu üçlük bir yerdə həmin ünsiyyət halqasını təşkil edir.

Bizim "Kredo" 950 dəfədir ki, bu üçlük nizamını qoruya bilib, cəmiyyətin müxtəlif təbəqələri ilə mehriban ünsiyyət qura bilib. Bu uğurun əldə olunması qəzetin sükançısından çox asılıdır. Şair-publisist, yazıçı Əli Rza Xələfli bir komandan kimi qəzetin ətrafına dəyərli yazarlar ordusu toplamaqla oxucuları ilə 20 ilə yaxındı ki, mehriban, anlaşıqlı dialoq ab-havası yaradıb. Sevinirəm ki, bu dialoqda mən də iştirak edirəm. İnanıram ki, "Kredo" - oxucu dialoqu bitib-tükənməyəndir. 950-ci dialoqun mübarək, "Kredo" çular.

Kredo.-2019.-13 iyun.-S.7.